# Naxçıvanda “Arıçılıq məhsulları - bal festivalı” keçirilib



Naxçıvanda arıçılığın qədim ənənələri var. Bu gün də muxtar respublikada arıçılıq inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası bu sahəyə marağı artırıb, yeni arıçılıq təsərrüfatları yaranıb, festival ənənəsi formalaşıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 26-da “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində beşinci “Arıçılıq məhsulları - bal festivalı” keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda iştirak edib.

Festival açıq elan edildikdən sonra Naxçıvan Dövlət Universitetinin Baytarlıq təbabəti kafedrasının baş müəllimi, biologiya üzrə fəlsəfə doktoru Əli Tahirov çıxış edərək deyib ki, Naxçıvanda arıçılıq son 20 ildə geniş surətdə inkişaf etdirilməyə başlanılıb. Hazırda muxtar respublikada arı ailələrinin sayı 99 mindən çoxdur. Arıçılığın inkişafı, ilk növbədə onun yem bazası ilə əlaqədardır. Muxtar respublikanın florası nektarlı bitkilərlə zəngindir. Belə ki, Azərbaycanda mövcud olan 400 növ balverən bitkinin əksəriyyəti qədim diyarımızda mövcuddur.

Baxış zamanı məlumat verilib ki, festivala muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən 289 arıçı tərəfindən 14 tondan artıq süzmə, 2 tondan artıq şan bal, arı südü, mum, vərəmum, çiçək tozu və güləm çıxarılıb. Naxçıvan balı öz dadı, ətri, görünüşü, həmçinin bir sıra keyfiyyət göstəricilərinə görə Azərbaycanda, eyni zamanda, qonşu ölkələrdə yaxşı tanınır və yüksək qiymətləndirilir. Son illər Naxçıvanda arıçılıq sahəsində aparılan elmi araşdırmaların həcmi çoxalıb, bu sahəyə dair kitab və dərsliklər nəşr olunub. Balla yanaşı, vərəmum, çiçək tozu, güləm, arı südü və digər arıçılıq məhsulları yüksək tibbi əhəmiyyətə malikdir.

Naxçıvan Dövlət Universitetinin müəllimləri polenli nektarlı bitkilərin herbariləri, yeni nəsil arı pətəkləri, ana arı südünü almaq üçün vasitə, şansız arı paketi, ana arı sürfəköçürmə aləti və arı südü çərçivəsi haqqında ərafli məlumat veriblər.

Ali Məclisin Sədri arıçılarla söhbət edib, bal alıb, onların qayğıları ilə maraqlanıb.

Arıçılar Birliyinin sədri Etibar Məmmədov, Arbatan kənd sakini Tahir Ələkbərov, Günnüt kəndindən olan arıçı, 2019-cu ildə keçirilən “Arıçılıq məhsulları - bal festivalı”nın qalibi olmuş Fikrət Məmmədov, Yuxarı Qışlaq kəndindən olan Əsəd Hacıyev, Çalxanqala kənd sakini Şəmsi Nəcəfov və Xıncab kənd sakini Habil Abbasov, Heydərabad qəsəbə sakini Zakir Zamanov, Əlincə kənd sakini Balabəy Allahverdiyev və Ərəfsə kənd sakini Aqil Qələndərov, Kotam kənd sakini Anar Həsənov və Vənənd kənd sakini Yaqut Babayeva minnətdarlıq edərək deyiblər ki, arıçılığa göstərilən dövlət qayğısı sayəsində muxtar respublikada arıçılıq özünün inkişaf dövrünü yaşayır. Festivalların keçirilməsi həm məhsul satışı, həm də arıçılar arasında təcrübə mübadiləsi aparılması baxımından əhəmiyyətlidir. Yaradılan şərait nəticəsində təsərrüfatlarımızda olan arı ailələrinin sayını ikiqat artırmışıq. Bu da tələbatdan artıq bal istehsal etməyimizə və bazara keyfiyyətli məhsul çıxarmağımıza imkan verib.

Festival bu gün də davam edəcək, arıçılar arasında “Ən yaxşı arıçılıq məhsulları - bal” nominasiyası üzrə müsabiqə keçiriləcək.

* * *

Həmin gün Ali Məclisin Sədri “Naxçıvanqala” Tarix - Memarlıq Abidəsində aparılan bərpa işləri ilə tanış olub, müvafiq tapşırıqlar verib.

Azərbaycan.- 2020.-27 sentyabr.- S.4.